*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 aprel 2019-cu il № 29 (2346) Qiyməti 30 qəpik

## Bütün ixtisaslar üzrə kursantların intensiv hazırlığı davam edir



Azərbaycanda müstəqil dövlət quruculuğunun ən mühüm nailiyyətlərindən biri respublikamızın suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin müdafiəsinə xidmət edən Azərbaycan Ordusunun yaranması və formalaşmasıdır. Xalqımızın zəngin və şərəfli hərbi ənənələrini qoruyub saxlamaqla müstəqil dövlətimizdə məqsədyönlü və səmərəli ordu quruculuğunun aparılması, müasir tələblərə cavab verən Silahlı Qüvvələrin və yüksək mənəvi-psixoloji keyfiyyətlərə malik şəxsi heyətin formalaşdırılması ulu öndər Heydər Əliyevin özünəməxsus müdrikliklə və uzaqgörənliklə həyata keçirdiyi, möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyət və ardıcıllıqla davam etdirdiyi mükəmməl strategiyaya əsaslanır.

**(Ardı 2-ci səhifədə)**

## Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib

*Prezident İlham Əliyev "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Fərman imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Fərmana əsasən müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 80 manat müəyyən olunub. Təqaüd 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir. Təqaüd dövlət büdcəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik tərəfindən ödənilir.

Bu Fərmana əsasən, təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü və müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə, ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən I qrup əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünü almaq hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin qeyd olunan təqaüdlərindən yalnız biri - ən yüksəyi verilir.

Fərmanda Nazirlər Kabinetinə və Ədliyyə Nazirliyinə müvafiq tapşırıqlar verilib.

## XİN Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada keçirilən görüşünə dair məlumat yayıb

Aprelin 15-də Moskva şəhərində Rusiya tərəfinin təşəbbüsünə əsasən, Rusiya xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında görüş keçirilib. Görüşdə, həmçinin ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidməti Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada keçirilən görüşünə dair məlumat yayıb.

Məlumatda qeyd edilir ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə başlıca məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. Bu xüsusda, cari il martın 29-da Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin Vyanada baş tutmuş görüşünün nəticələri diqqətə alınmaqla, münaqişə üzrə danışıqlar prosesinin irəli aparılması perspektivləri nəzərdən keçirilib.

Görüşdə, həmçinin münaqişə zonasında gərginliyin azaldılmasına dair tədbirlər, habelə humanitar sahədə mümkün birgə fəaliyyət üzrə fikir mübadiləsi aparılıb. Nazirlər KİV nümayəndələrinin qarşılıqlı səfərləri də daxil olmaqla, insanlararası təmasların qurulması istiqamətində praktiki addımların atılmasına razılıqlarını ifadə ediblər. Görüş iştirakçıları yaxın gələcəkdə təmasların davam etdirilməsini razılaşdırıblar.

Görüş nəticəsində Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirlərinin və ATƏT-in həmsədrlərinin birgə bəyanatı qəbul edilib.

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri: Dağlıq Qarabağ münaqişəsinə yanaşmada ikili standartlara yol verilir

*Aprelin 16-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqer ilə görüşüb.*



Müdafiə naziri səfiri yeni təyinatı ilə əlaqədar təbrik edərək onun ölkəmizdə diplomatik fəaliyyəti dövründə Azərbaycan-ABŞ münasibətlərinin daha da genişlənəcəyinə əminliyini bildirib.

Azərbaycan ilə ABŞ arasında əlaqələrin NATO proqramları çərçivəsində və ikitərəfli əsasda qurulduğunu qeyd edən Müdafiə naziri hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişafının vacibliyini diqqətə çatdırıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Zakir Həsənov Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərinə baxmayaraq sülh danışıqlarının rəsmi Yerevan tərəfindən qəsdən yubadıldığını vurğulayıb. Nazir təəssüf hissi ilə bildirib ki, bir sıra aparıcı dövlətlər və beynəlxalq təşkilatlar bəzi münaqişələrdə iştirak edən tərəflərə təsir göstərdikləri halda, Dağlıq Qarabağ münaqişəsinə yanaşmada ikili standartlara yol verirlər.

Ö.Litzenberqer də öz növbəsində Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə edərək fəaliyyəti müddətində ölkələrimiz arasında əlaqələrin daha da inkişafı naminə səylərini əsirgəməyəcəyini vurğulayıb.

ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və ona hörmətlə yanaşdığını qeyd edən amerikalı diplomat ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, bunun Cənubi Qafqaz regionunun inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından vacibliyini bildirib.

ABŞ-Azərbaycan əməkdaşlığının strateji əhəmiyyət kəsb etdiyini qeyd edən səfir Azərbaycan Ordusunda aparılan islahatları izlədiyini və bu sahədə əldə edilən nailiyyətləri yüksək dəyərləndirdiyini diqqətə çatdırıb. İki ölkə arasında hərbi əməkdaşlığa toxunan Ö.Litzenberqer Azərbaycan sülhməramlılarının Əfqanıstanda keçirilən missiyada iştirakından məmnunluq ifadə edib.

Sonra tərəflər regional və ikitərəfli əməkdaşlıq, Xəzər dənizi və mühüm enerji infrastrukturlarının təhlükəsizliyi, kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə, hər iki ölkənin hərbi təhsil üzrə mütəxəssislərinin qarşılıqlı səfərləri, həmçinin maraq doğuran bir sıra digər məsələləri müzakirə ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Ramin BƏŞİROVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***16 aprel 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Acarlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Bütün ixtisaslar üzrə kursantların intensiv hazırlığı davam edir



**(Əvvəli 1-ci səhifədə)**

Bu gün öz gücü və qüdrəti ilə seçilən, qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirmək imkanı olan Azərbaycan Ordusunun döyüş hazırlığı səviyyəsi durmadan yüksəldilir, şəxsi heyət müasir silah və texnika ilə təchiz olunur, yeni poliqonlar inşa edilir, döyüş şəraitinə uyğun təlimlər həyata keçirilir. Vəzifəsindən asılı olmayaraq, hər bir hərbi qulluqçu verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirməyə qadirdir.

Ordu rəhbərliyinin dəfələrlə bəyan etdiyi kimi, təlimlər, yoxlamalar və digər tədbirlər əsgər və zabitlərimizin müasir döyüşün ən mürəkkəb tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduqlarını, döyüş qabiliyyətlərini və peşəkarlıqlarını, yeni silah sistemlərindən və döyüş texnikasından ustalıqla istifadə etmək bacarıqlarını əhəmiyyətli dərəcədə artırdıqlarını göstərir.

Bu gün müstəqil dövlətin atributlarından biri olan güclü və müasir tələblərə cavab verə biləcək Silahlı Qüvvələrin yaradılmasında hərbi təhsil sisteminin də müstəsna əhəmiyyəti vardır. Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini təmin edən xüsusi strateji fəaliyyət sahəsi olmaqla sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mərhələlər üzrə fasiləsiz mənimsənilməsini təmin edən təhsil ocaqlarından biri də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbidir. Bu təhsil ocağı digər silahlı birləşmələrin qarşısında qoyulan vəzifələri yerinə yetirməyi bacaran kadrlar hazırlayır. Xüsusi təyinatlı təhsil müəssisəsində gələcəyin zabiti olacaq kursantların fiziki, mənəvi-psixoloji və döyüş hazırlığına xüsusi diqqət yetirilir. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin tədris planı və proqramına uyğun olaraq "Qaraheybət" təlim mərkəzində kursantların intensiv hazırlığının həyata keçirilməsi də yuxarıda qeyd etdiklərimizin sübutudur.



Səhra şəraitində keçirilən dərslərdə təlim sahələrinin rəhbərləri hazırlıq məşqlərinə cəlb olunan heyəti təhlükəsizlik qaydaları, atışın şərtləri və digər tələblərlə tanış edirlər.

Hərbi qulluqçular müxtəlif atıcı silahlardan istifadə qaydalarını məşq edir və praktiki atış çalışmalarını icra edirlər.

"Qaraheybət" təlim mərkəzində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantlarının bütün ixtisaslar üzrə intensiv hazırlığı prosesində şəxsi heyət mərhələlərlə zirehli döyüş maşınlarının çətin keçilən ərazilərdə idarə olunması, eləcə də zirehli texnikaların ştat silahından və artilleriya qurğularından praktiki döyüş atışlarını da icra edir.

Bu isə o deməkdir ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları hərb tarixinə öz töhfəsini verirlər. Eyni zamanda, gələcək zabitlər Ulu Öndərin siyasi kursuna sadiq qalaraq sabaha inamla addımlayırlar. Aydındır ki, istedadlı komandirlər olmadan, müasir hərb sənətini bilən, peşəkar zabit korpusu yaradılmadan ordunu idarə etmək, qarşıya qoyulan vəzifələri yerinə yetirmək mümkün deyil. Əsas məqsəd isə Azərbaycanın ərazi bütövlüyünün qorunmasında iştirak etmək və ulu öndər Heydər Əliyevin xalqımıza bəxş etdiyi müstəqil Azərbaycanı gələcək nəsillərə əmanət etməkdir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun sözləri ilə desək, təlimlər genişmiqyaslı hücum əməliyyatlarının keçirilməsi məqsədinə xidmət etməlidir.

**"Azərbaycan Ordusu"**

# "Ən yaxşı hərbi aşpaz" adı uğrunda yarış keçirilib



Müdafiə Nazirliyi Maddi-Texniki Təminat Baş İdarəsinin 2019-cu il üçün hazırlıq planına əsasən, Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində çalışan hərbi aşpazların nəzəri bilik və praktiki bacarıq səviyyələrini yoxlamaq üçün "Ən yaxşı hərbi aşpaz" adı uğrunda yarış keçirilib.

Yarışlar bölmələrdə xidmət edən aşpazların praktiki təcrübələrinin təkmilləşdirilməsi, yeməkxanaların nümunəvi vəziyyətdə saxlanılması, yeməklərin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə keçirilib.



Üç mərhələdə keçirilən yarış vaxtı qidanın düzgün hazırlanmasına, ərzaq məhsullarının emalı zamanı əmələ gələn tullantıların normalarına, texnoloji avadanlıqlardan düzgün istifadə edilməsinə, xüsusi geyimin təmizliyinə, sanitariya-gigiyena tələblərinə ciddi riayət edilməsinə və digər amillərə xüsusi diqqət yetirilib.

"Ən yaxşı hərbi aşpaz" adı uğrunda keçirilən yarışın yekununda qaliblər müəyyən edilərək mükafatlandırılıb.

**"Azərbaycan Ordusu"**

*Ön xətdən reportaj*

# "Bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir"



Səngərdəyik... Ərazidəki səliqə-sahman, şəxsi heyətin nizam-intizamı xidmətin düzgün təşkilindən xəbər verir. "Qarabağı düşməndən azad edək", "Vətənim Azərbaycana xidmət edirəm", "Ya Qarabağ, ya ölüm" plakatları da bölmədə mənəvi-psixoloji hazırlıq işinin düzgün aparıldığını və şəxsi heyətin yüksək döyüş ruhunda xidmət etdiyini göstərir. Şəxsi heyətə cavabdeh zabit Nahid Rzayevlə görüşüb, vəziyyət barədə maraqlanırıq. "Qarşı tərəf günaşırı atəşkəsi pozur. Amma postlarda ayıq-sayıq dayanan, qorxmaz, cəsur, torpağını, Vətənini sevən əsgərlərimiz onları cavab atəşi ilə susdururlar. Onlardan qat-qat güclü olduğumuzu hər bir əsgər yaxşı bilir və düşməni məhv etməyə daim hazırdır. Biz heç vaxt nə düşməndən, nə də atdıqları güllələrdən qorxmamışıq. Onlara gücümüzü Aprel döyüşlərində göstərdik. Yenə də gücümüzü göstərməyə, Ali Baş Komandanın əmri ilə işğal altında olan digər torpaqlarımızı da azad etməyə tam hazırıq", - deyə zabit bildirir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Asim Nəsirov xidmətin uğurla davam etdiyini, qarşıdakı düşmənin daim nəzarətdə olduğu deyir:

- Tabeliyimdəki əsgərlər nizam-intizamlı, vətənpərvər və bacarıqlı döyüşçülərdir. Döyüş növbəsində ayıq-sayıq xidmət apararaq, düşmən mövqelərini nəzarətdə saxlayırlar. Bu oğulların qorxmazlığı, Vətən sevgisi seçdiyim peşəyə bağlılığımı daha da artırır. Belə vətənpərvər əsgərlərlə bir yerdə xidmət etməkdən qürur duyuram. Onlara hərbi bilikləri öyrədir, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşə hazırlamaq məqsədilə əlimdən gələni edirəm. Əsgərlərlə tez-tez fərdi söhbət aparır, problemləri ilə yaxından maraqlanıram.

Asim beş ilə yaxındır bu hərbi hissədə xidmət edir. O, uşaqlıqdan forma geyinmək arzusunda olub. Əsgəri xidmətini ön xətdə, döyüş postunda başa vurduqdan sonra yenidən ordu sıralarına qatılıb. Ön xətdə xidmət etməyindən qürur duyduğunu bildirən hərbi qulluqçumuz Vətən torpaqları azad edilməyənə qədər rahatlıq tapmayacağını, formanı heç vaxt çıxarmayacağını vurğulayır.

Növbəti həmsöhbətim əsgər Elvin İsmayılovdur. Mövqedə ayıq-sayıq dayanan məğrur döyüşçümüz düşməni hər zaman nəzarətdə saxladığını qeyd edir: "Bu gün ata-baba torpaqlarımızın bir qismi erməni qəsbkarları tərəfindən işğal olunub. O zaman mən və yaşıdlarım hələ dünyaya göz açmamışdıq. Məktəbə getdiyim illərdə müəllimlərim tərəfindən öyrəndim ki, düşmən xalqımızın başına olmazın müsibətlər açıb. Faciələr, soyqırımlar törədib, soydaşlarımızı öz torpaqlarından didərgin salıb. Mən işğalda olan torpaqlarımızı ancaq foto şəkillərdə, video çəkilişlərdə görmüşəm. Ancaq bu gün tarixi torpaqlarımızı canlı-canlı görmək arzusundayam. Aprel döyüşləri, Günnüt zəfəri də sübut etdi ki, tezliklə arzum reallaşacaq. Əslində, bu arzu təkcə mənim yox, bütün Azərbaycan xalqının arzusudur. Azərbaycan əsgəri tez bir zamanda Ali Baş Komandanımızın əmri ilə işğalda olan torpaqlarımızı azad edəcək və xalqımızın arzusunu reallaşdıracaq".

Elvinin sözləri məni xəyallara qərq edib, Aprel döyüşlərinə apardı. Xatirələr məni həm duyğulandırdı, həm də fərəhləndirdi. Fərəhlənirəm, ona görə ki, Azərbaycan əsgəri təxribata əl atan düşməni məhv edərək, məğlubiyyətə uğratdı. Torpaqlarımızın bir qismini işğaldan azad etdi. Xalqımızın doğma el-oba, torpaq həsrətinə su səpdi. Döyüşlərdə qəhrəmancasına şəhid olan silah yoldaşlarımın xatirəsi isə məni duyğulandırdı. Həmsöhbət olduğum igid əsgərlərin fikirləri Böyük Qələbəyə olan inam hissimi artırır. O inam hissi ki, bu igid döyüşçülər gec-tez şəhidlərimizin qanını yerdə qoymayacaq, torpaqlarımızın qalan hissəsini də işğaldan azad edəcəklər...

Əsgər Səyyad Əsgərovun "Növbədə olduğum zaman heç bir hadisə baş verməyib" məruzəsi məni xəyallarımdan ayırır. Şəhidlərin xatirəsi ilə dolu səngərdə torpaqlarımıza keşik çəkən daha bir igidin əlini sıxıram. Səyyad artıq xidmətinin xeyli hissəsini başa vurub. O, döyüş növbəsində ayıq-sayıq dayandığını deyir:

- Üzərimə düşən məsuliyyəti yaxşı dərk edərək, xidmətimə ciddi yanaşıram. Bir gənc kimi mənə ən şərəfli vəzifə - Vətən torpaqlarını qorumaq tapşırılıb. Bu vəzifənin öhdəsindən bacarıqla gəlmək, ordumuza layiqli xidmət etmək üçün əlimdən gələni edirəm. Xidmətə gəldiyim ilk gündən nizam-intizamlı olub, komandirlərin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirməyə çalışıram. Ordu sıralarındakı xidmətim dövründə peşəkar komandirlər tərəfindən bacarıqlı döyüşçü kimi yetişmişəm və hər an torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərə atılmağa hazıram.

Əsgər Səyyad Əsgərova xidmətində uğurlar arzulayıb, növbəti mövqeyə üz tuturam. Səngərdə irəlilədikcə bu yerlərdə gecə-gündüz xidmət edən əsgərlərlə həmsöhbət olmağın sevincini yaşayıram. Onları tanıdıqca vətənpərvərliklərini, Vətən sevgilərini, düşmənə nifrət hissini onların öz dilindən eşitdikcə düşüncələrim qanad çalır. Hər biri düşmənə göz dağı olan bu əsgərlər bir daha göstərirlər ki, Azərbaycan xalqı ordusuna əbəs yerə güvənmir. Onun güclü ordusu və yenilməz əsgərləri var...

Növbəti mövqedə dayanan əsgər Qasım Həsənov da düşüncələrini bizimlə bölüşərək, hərbi xidmətdə yaddaqalan günlərindən, əsgər dostlarından söz açır:

- Bir gənc üçün əsgər olmaq ən böyük sevincdir. Ona görə ki, əsgəri formanı geyinib, əlinə silah alıb, torpaqlarımızın keşiyində dayanırsan. Mən bu sevinci yaşadığım üçün özümü şanslı hesab edirəm. Hərbi andiçmə günüm yaddaqalan günlərdən biridir. Bir əlim silahda, bir əlim əsgər yoldaşımın çiynində Vətənə sədaqət andı içdiyim o gün yaddaşıma silinməz hərflərlə həkk olundu. Təntənəli marşla keçiddən sonra, atam əlini çiynimə qoyub "Səninlə fəxr edirəm, oğul və unutma, təkcə mən yox, bütün Azərbaycan xalqı siz əsgərlərlə fəxr edir" dedi. Atamın bu sözləri və qürurlu baxışlarını gördükdə anladım ki, həyatda əsgər olmaq qədər qürurverici ikinci bir hiss yoxdur. Əsgərlikdə həm də möhkəm dostlar qazanırsan. Hansı ki, bu dostluq zəncirdən də möhkəmdir. Vaxtı gələndə onunla birgə savaşa girirsən, döyüşürsən. Şəhid olsan belə bunu ilk əsgər dostun görür və onun qollarında şəhid olursan. Ona görə əsgərlik dövrü həyatda yaşadığın ən gözəl illərdir."

"Gözlər qəlbin aynasıdır" deyirlər. Qasımın ürəyindəki Vətən sevgisi, vətənpərvərlik hissi onun gözlərindən oxunur.

Əsgərlər Elcan İsayev, Cavidan Salahov, Eldar Əhmədov və digərləri də onlara əmanət olunan Vətəni göz bəbəyi kimi qoruduqlarını vurğulayırlar. "Barmağımız tətikdə, gözümüz nişangahda düşmən qarşısında ayıq-sayıq dayanmışıq. Qarşı tərəfdən hər hansı həmlə olarsa, daşı-daş üstə qoymarıq", - deyirlər.

...Vaxt gəlib çatır. Ayrılıq məqamı yetişir. Barıt qoxulu bu səngərlərdə tezliklə qələbə reportajını hazırlamaq istəyi ilə döyünən ürəyimə bir inam hakim olur: Samidlərin, Fəridlərin, Mübarizlərin qələbə ruhunu yaşadan əsgərlərimiz Ali Baş Komandanımızın dediyi kimi: "Bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir. Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir".

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyinə həsr olunmuş mini-futbol turnirinə start verildi

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2019-cu il üçün təsdiq etdiyi plana əsasən, aprelin 12-də Silahlı Qüvvələrin Hərbi Akademiyasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyinə həsr olunmuş mini-futbol turnirinə start verildi.*






Tədbirdə İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev, Hərbi Akademiyanın rəhbərliyi və müəllim heyəti, ehtiyatda olan general-mayor Altay Mehdiyev, Azərbaycan Həvəskarlar Futbol Federasiyasının nümayəndələri, beynəlxalq və respublika dərəcəli hakimlər, bir sıra fəxri qonaqlar, eyni zamanda, Hərbi Akademiyanın və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları iştirak etdilər. Tədbirdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Açılış mərasimində Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev çıxış edərək gələn qonaqları və yarış iştirakçılarını salamladı. Mini-futbol turnirində iştirak edən heyətə uğurlar arzulayan zabit, həmçinin ulu öndər Heydər Əliyevin idmana və idmançılara dövlət səviyyəsində göstərdiyi qayğıdan geniş söz açdı: "Xalqımızın ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyev istər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycanda idmana, onun inkişafına və maddi-texniki bazasının möhkəmləndirilməsinə, idmançıların peşəkarlığının artırılmasına, gənc nəslin fiziki cəhətdən sağlam yetişdirilməsinə daim ciddi nəzarət edib. Onun hakimiyyəti illərində ölkədə idman kompleksləri və qurğuları tikilib, idman meydançaları salınıb, idman-sağlamlıq mərkəzləri yaradılıb. Bu qayğı ölkəmizdə idmanın inkişafına, istedadlı idmançıların potensial imkanlarının açılmasına xidmət göstərib. Təbii ki, respublikamızda idmanın populyarlaşması və dövlət qayğısı ilə hərtərəfli təmin edilməsi ordu idmanına da öz müsbət təsirini göstərib. Bu proses Ulu Öndərdən sonra onun layiqli davamçısı möhtərəm Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Hazırda ölkə başçısının diqqət və qayğısı nəticəsində müxtəlif idman növləri üzrə peşəkar idmançıların yetişdirilməsi üçün hər cür şəraitlə təmin olunmuş Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubu (MOİK) fəaliyyət göstərir. Burada peşəkar idman ustaları tərəfindən idmanın 20 növü üzrə məşqlər keçirilir. Ordu idmançılarımız olimpiya, dünya, Avropa və başqa səviyyəli beynəlxalq yarışlarda uğurlu çıxışları ilə yadda qalırlar".

General-leytenant Heydər Piriyev çıxışında keçirilən mini-futbol turnirinin məqsədinə də toxundu. "Bildiyimiz kimi, bu il Ulu Öndərin anadan olmasının 96-cı ildönümüdür. Bununla əlaqədar respublikamızda bir sıra kütləvi tədbirlərin keçirilməsi planlaşdırılıb. Əlamətdar gün münasibətilə Azərbaycan Ordusunda da müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub. Həmin tədbirlərdən biri də hazırda açılış mərasiminə yığışdığımız mini-futbol turniridir. Əminəm ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin hərtərəfli diqqət və qayğısı nəticəsində idmanımız daha yüksək zirvələri fəth edəcək, idmançılarımız ən parlaq qələbələrini Ümummilli Liderimiz, xalqımızın dahi və sevimli oğlu Heydər Əliyevin əziz xatirəsinə həsr edəcəklər".

Çıxış edən digər qonaqlar da ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın idman siyasətinin həyata keçirilməsi sahəsindəki əvəzsiz xidmətlərindən danışdılar. Onun Azərbaycana rəhbərlik etdiyi bütün dönəmlərdə idman və bədən tərbiyəsinin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyi, bu sahədə yüksəlişin əsasının qoyulduğu, həmçinin bu siyasətin nəticəsi kimi müstəqil Azərbaycanın həm də bir idman ölkəsi kimi beynəlxalq aləmdə tanınması və olimpiya hərəkatına qoşulması diqqətə çatdırıldı.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra Hərbi Akademiyanın MTT şöbəsi ilə Hərbi Akademiyada təhsil alan birinci kursun ikinci qrupunun komandaları arasında açılış oyunu baş tutdu.

Məlumat üçün qeyd edək ki, səkkiz komandanın iştirak etdiyi turnirin qrup mərhələsində hər qrupda dörd komanda mübarizə aparacaq. Qrup oyunlarının sonunda hər qrupda ən yüksək xal toplayan iki komanda yarım-final mərhələsinə vəsiqə qazanacaq. Yarışın sonunda qaliblərə kubok və fəxri fərmanlar təqdim olunacaq.



**Leytenant Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu"**

# Elmar Məmmədyarov: Moskva görüşü faydalı və substantiv keçdi

*Aprelin 15-də Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Moskva görüşü faydalı və substantiv keçdi.*

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan jurnalistlərinə müsahibəsində xarici işlər naziri Elmar Məmmədyarov söyləyib.

Nazir qeyd edib ki, əvvəlcə Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirləri üçtərəfli görüş keçirdilər. "Çox faydalı görüş oldu. İndiyə qədər danışıqlarda irəliləyişə imkan verməyən məsələləri konkret şəkildə müzakirə etdik. Tam şəkildə irəliləyişin olmasını deyə bilmərəm. Ancaq Ermənistan tərəfi ilə bəzi problem yaradan məqamları ətraflı və daha dərindən başa düşə bildik. Məsələn, Ermənistan tərəfi statusla və təhlükəsizliklə bağlı məsələ qaldırdı. Biz isə qoşunların işğal altında olan torpaqlardan çıxarılması və məcburi köçkünlərin geri qaytarılması məsələsini qaldırdıq. Bu dörd fikir əsasında çox dərin müzakirələr apardıq", - deyə nazir bildirib.

Elmar Məmmədyarov vurğulayıb ki, görüşdə bəzi təkliflər səsləndirilib: "İndidən bu təklifləri açıqlamaq istəmirəm. Bu, həm Rusiya, həm digər həmsədrlər, həm də Azərbaycan və Ermənistan tərəfinin təklifləridir. Biz bu istiqamətdə işimizi davam etdirəcəyik".

Nazir görüşün yekun bəyanatında qeyd olunduğu kimi, Azərbaycan və Ermənistan jurnalistlərinin Bakıya, Yerevana və Dağlıq Qarabağa səfərlərinin təşkili məsələsinə toxunub: "Bu, çox maraqlı fikirdir ki, erməni və azərbaycanlı jurnalistlər Yerevana, Bakıya, Dağlıq Qarabağa səfərlər etsinlər. Bundan əlavə, cəbhə bölgəsində kənd təsərrüfatı ilə məşğul olan əhalinin təhlükəsizliyinin təmin olunması barədə razılığa gəldik. Ümid edirəm ki, Ermənistan tərəfi buna hörmətlə yanaşacaq. Sakinlərə öz torpaqlarında işləməyə imkan yaradacaqlar".

# Hərbi dənizçilərlə Hərbi Prokurorluq nümayəndələrinin görüşü keçirilib

Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında imzalanan 2019-cu il üçün birgə tədbirlər planına əsasən Hərbi Dəniz Qüvvələrində görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə hərbi qulluqçulara qarşılıqlı davranış qaydaları və münasibətlərin nizamnamənin tələblərinə uyğun qurulması barədə brifinq təqdim olunub.

Sonda görüş iştirakçıları mövzu ilə əlaqəli aktual məsələləri müzakirə edib və bu cür tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

# Azərbaycan və Ermənistan dövlət sərhədində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 17-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Joviç keçirəcəklər.

## Ön xətdə düşüncələr

# Vətən borcu müqəddəsdir

Bir az əvvəl ön xətdəydim. Əsgərlərimizlə şirin-şirin söhbətləşmişdik. Söz sözə söykək olmuşdu, söz sözü çəkmişdi. 2016-cı ilin Aprel döyüşlərinin qəhrəmanlarından, şəhidlərdən, Azərbaycan Ordusunun döyüş və mənəvi-psixoloji hazırlığından, əsgərlərin döyüş əzmindən, qələbə ruhundan, yaxın vaxtlarda Azərbaycan əsgərinin əlləriylə işğalın gözlərinin ovcuna töküləcəyindən, Böyük Qələbədən danışmışdıq. Hər kəlmədə qürur, ehtiram, inam vardı...

Günəş qüruba meyillənməkdəydi. Qayıdırdıq.

Əsgərlərdən bir nəfəs dərimi qədər uzaqlaşmışdıq. Özümə də məlum olmayan hansı duyğunun təsiriylə ayaq saxladım. Dönüb arxaya baxdım. Leytenant Şamil Qəhrəmanın baxışlarında gördüyüm, hiss etdiyim "Niyə dayandınız?" sorğusunu cavablandıra bilməyəcəyimin duyğusal səksəkəsi ruhumu sıxmaqdaydı...

Ürəyim məni geri çəkirdi. Mənə elə gəlirdi ki, nələrisə soruşmağı, öyrənməyi, dəqiqləşdirməyi unutmuşam. Məhz nələri? - bilmirdim. Mənə elə gəlirdi ki, geri dönməsəm, buradan uzaqlaşdıqca təəssüf üreyimi üzdükcə üzəcək...

Neçə ay əvvəl ön xətdən bir reportaj yazmışdım: "Səngərləri sərhədlərə köçürəcəyik!". Ön xəttə bu dönməz inamla gəlirəm, əsgərlərlə bu inamla söhbətləşirəm, bu inamla qayıdıram.

Yenə ön xətdəydim. Ayrı bir məkanda tanıdığım-tanımadığım əsgərlərin baxışlarında çırpınan mətləbdə deyirdi ki, yaxın vaxtlarda səngərləri sərhədlərə köçürəcəyik. Məni (bizi, bizləri) ön xəttə gətirən də bu müqəddəs inamın işığıdı, ön xətdən yola salan da. Görəsən, əsgərlər bilirmi ki, bu gözəl işığın gözəl zərrələrini ürəyimə büküb özümlə aparıram?! Bu işıq mənimlə səngərlər dolaşacaq, sonda - Böyük Qələbənin şadyanalığında özü biçimli zərrələrə qarışacaq, gurlaşan işığa hopacaq. O işığa şükranlıq işığı deyəcəyik...

Bir müddət əvvəlki söhbətimizi xatırlayırdım. Zabitləriydi, biziydik, əsgərləriydi. Səmimi söhbət çox mətləblərin işığına dönmüşdü. Bu gözçəkən işıqdan gözgörümü qədərincə uzaqlaşanda xatırladım: əsgərlərdən soruşmuşdum ki, Vətən borcu 18 aya sığa bilərmi? Bu sualla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamıyla yenidən qurulan Cocuq Mərcanlının timsalında Böyük Qələbədən - müharibədən sonrakı Azərbaycanın coğrafiyasında olacaq dəyişikliklərə, tikintilərə əsgər münasibətini öyrənmək istəmişdim. Araya bir anlıq sükut çökmüşdü. Həmin bir anın içində zaman dayanmışdı elə bil. Dayanmış zaman düşüncələrə qətiyyən təsir edə bilməyib, indi də edə bilməyəcəkdi. O sükuta görə sualı bir qədər dəyişməklə yenidən təkrarlamaq istəyirdim ki, əsgər Yusif Aşuralıyev demişdi:



- Yox, Vətən qarşısında övladlıq borcunu yerinə yetirmə bu müddətə sığışa bilməz. Vətən müqəddəs olduğu üçün Vətən borcu da müqəddəsdi. Müqəddəs borc son nəfəsəcən ödənilməli borcdu. Ulularımız Vətən borcunu belə ödəyib, biz də belə ödəyəcəyik.

Əsgər Röyal Əmrahov demişdi:

- Hərbi xidmətdəyik. Əsgərik, Vətən borcunu yerinə yetiririk. Vaxtı çatanda tərxis olunacağıq. Sıralarımızda gələcəkdə taleyini hərbi işə bağlayanlar da olacaq. Əsl vətəndaş özünü tərxis olunduqdan sonra da əsgər hesab etməlidi. Müharibə başa çatana kimi hər birimiz bir əsgərik. Qələbədən sonra quruculuq işlərində də əsgəri məsuliyyətlə, əsgəri istəklərlə iştirak edəcəyik.

- İnşaatla bağlı təhsiliniz, təcrübəniz varmı? - maraqla soruşmuşdum. Sorğuma aldığım cavab düşüncələrimdə şahlıq etmişdi:

- Ali təhsilli əsgərlər də var. Onların sırasında Memarlıq və İnşaat Universitetini bitirənlərin də olduğuna sizin də zərrəcə şübhəniz olmasın. Bir də, nə fərqi var ki. Təhsilimiz, təcrübəmiz olmasa da, daş daşımağa, beton qarışdırmağa gücümüz çatar. Hərə bir işin qulpundan yapışacaq. Məsuliyyətlə xidmət etdiyimiz kimi, məsuliyyətlə də işləyəcəyik. Müharibənin kəndlərə vurduğu yaraları ev-ev sağaldacağıq...

Əsgər Məhəmməd Zülfüqarov eyni məzmunlu başqa bir mətləbə toxunmuş, bir qədər duyğusallıqla demişdi:

- Hərəmiz bir rayondanıq. Xidmət müddətində doğmalaşmışıq. Bizi əsgər dostluğu doğmalaşdırıb. Tərxis olunduqdan sonra hərə öz rayonuna qayıtsa, işğaldan azad edəcəyimiz yaşayış məntəqələrində tikintilərdə kim işləməlidi? Necə ola bilər ki, hərbi xidmət dövründə Səbuhi Orucovla dost olam, xidmətdən sonra Qubadlıda Səbuhinin sağında dayanmayam?

Əsgər Nemət Abbasov Məhəmmədin fikrinə qüvvət kimi demişdi:

- Hərbi xidmətimiz də Vətən üçündü, tərxis edildikdən sonra yaşadacağımız münasibətlər də.

Əsgər Asəf Eyvazov yoldaşlarının fikrini belə tamamlamışdı:

- Müharibənin dağıntılarını tam bərpa edənə kimi özümüzü əsgər biləcəyik.

- Bu və buna oxşar fikirləri Cocuq Mərcanlıda əsgərlərdən eşitmişdim. Bəlkə də bu gün bu sualı o vaxtlar eşitdiyim kəlmələri xatırlayıb vermişdim. Reallıq budur ki, zaman müxtəlifliyi də, məkan müxtəlifliyi də Azərbaycan əsgərlərinin düşüncələri arasında fərq yarada bilməyib. Onda əsgərlərdən biri laçınlı olub Laçını görməyən dostuyla Laçında tikintidə işləyəcəyini demişdi. İndi əsgərlərdən biri qubadlılı olub Qubadlını görməyən dostuyla Qubadlıda tikintidə işləyəcəklərini dedi. Belə səmimiyyət onda da ürəyimi telləndirmişdi, indi də tellənrdirdi, - demişdim.

Leytenant Şamil Qəhrəman bölmənin əsgərlərinə baxmışdı. Hiss edirdim ki, eşitdiklərinə münasibət bildirmək niyyətindədi. Ona görə əsgərlərə hələ nəsə demək istəməmişdim. Leytenantın ürəyindən keçənləri duymaq çətin deyildi. Duydum da, eşitdik də:

- Düşündürücü sualınıza aldığınız cavablar məni həm bir zabit kimi, həm də bir vətəndaş kimi duyğulandırdı. Belə düşünən əsgərlərimizlə fəxr edirəm. Onların dünyagörüşünün bu səviyyədə formalaşmasında, heç şübhəsiz ki, hərbi xidmətin də böyük rolu vardır. Tam məsuliyyəti ilə deyə bilərik ki, bu əsgərlər, ümumən, Azərbaycan əsgərlərini təmsil edirlər.

Leytenant əsgərlərin döyüş əzmindən də, qələbə ruhundan da danışmışdı. Əminliklə demişdi ki, əsgərlərimizin hər biri 2016-cı ilin aprelində zəfər qazananların davamçısı olacaq. Azərbaycan Ordusu həm də ona görə güclüdü, qüdrətlidi ki, hər əsgər qələbə üçün xidmət edir, qələbədən sonra Vətəndə quruculuq işlərində iştirak etmək niyyətindədir.

İndi qətiləşdirirəm ki, qayıdanda ayaq saxlamağıma bu söhbət, bu söhbətin məzmunu, axarı, bu axarın sonluğu səbəb olubmuş. Ürəyim məni buna görə səngərə çəkirmiş. Səngərə çəkirmiş ki, həmin duyğuları yaşayanların baxışlarını birər-birər könlümə köçürüm.

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

## Tibb xidməti

# “Hərbi qulluqçularımızın sağlamlığının keşiyindəyik”



Ön xətdə yerləşən "N" hərbi hissəsinin tibb məntəqəsi də xidmətini günün tələbləri səviyyəsində aparır. Burada peşəkar tibb personalı fəaliyyət göstərir. Onlar şəxsi heyətin sağlamlığını qoruyur, bölmələrimizin döyüş qabiliyyətinin aşağı düşməməsini təmin etmək üçün bilik və bacarıqlarını əsirgəmir, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirirlər.

Tibb məntəqəsi müasir, geniş və işıqlı bir binada yerləşir. Kabinetlər müasir tibbi avadanlıqlarla təmin edilib. Fizioterapiya, stomatologiya, rentgen, ümumi diaqnostika (kardiologiya və oftalmologiya) kabinetləri fəaliyyət göstərir. Ambulatoriya və lazaret şəxsi heyətin istifadəsindədir. Qəbul otağında çeşidləmə prosesi aparılır. Xəstəlik, xəstəliyin diaqnozu dəqiqləşdirilir. Tibb məntəqəsindəki stasionar və izolyasiya (təcrid) otaqları hazırlıq vəziyyətindədir. Yeməkxana, hamam və s. xəstələrin istifadəsi üçün daim hazırdır. Beləliklə, hərbi hissədə şəxsi heyət həkimlərin diqqət və qayğısından razıdır. Məntəqədə əsgərlərin müayinəsinə xüsusi fikir verilir. Zabitlərin dispanser müayinəsi planauyğun keçirilir. Gigiyenik qaydalara əməl etməklə hərbi hissədə sağlam həyat daim təmin edilir. Bütün bunlar hərbi həkimlərin gərgin əməyi nəticəsində başa gəlir.

Neyrosirkulyator distoniya - baş ağrıları diaqnozu ilə məntəqəyə qəbul edilən əsgər Coşqun Rzayevi mülki həkim Süreyya Məmmədova və feldşer-gizir Rəmal Qasımov müayinə edir. Xəstəyə təyinatı üzrə müalicə yazılır.



Əsgər Hüseyn Tağıyev isə diş ağrısı ilə məntəqəyə müraciət edib. Feldşer-gizir Famil Abdullayev əsgəri müayinə etdikdən sonra yerindəcə ağrıyan dişin müalicəsinə başlayır.

Tibb məntəqəsinin rəisi tibb xidməti leytenantı Fərhad Novruzov burada çalışan personalın peşəkar hərbi həkimlərimizin təcrübəsini mənimsədiyini və hər kəsin ürəyinin səsi ilə xidmətə gəldiyini dedi: "İllərdir, ölkəmizdə müharibə gedir. Torpaqlarımız mənfur qonşularımız tərəfindən işğal olunub. Həmvətənlərimiz öz doğma yurd-yuvalarından qovulub, qaçqın, köçkün vəziyyətindədirlər. Bu gün ölkəmizin bizə daha çox ehtiyacı var. Hərbi həkim adını daşımağımızla, ön xətdə xidmət etməyimizlə qürur hissi keçiririk. Hər birimiz fəxr edirik ki, bu gün biz Vətənimizi qoruyan əsgər və zabitlərimizin sağlamlığının keşiyində dayanmışıq."

"N" hərbi hissəsində tibb heyəti bu amallarla Vətənə xidmət yolunu seçib. Onlar şəxsi heyətə layiqincə xidmət göstərməklə, Hippokrat andına sadiq qaldıqlarını bir daha təsdiqləyirlər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir.

**Suallar:**
**1. Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir.**
**2. Müasir Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin əsəridir.**

*Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir*

Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Tarix göstərir ki, xalq üçün yaşayanlar, qurub-yaradanlar, həyatlarını onun yolunda məşəl kimi yandıranlar ölmürlər, millətlə və xalqla birlikdə əbədi ömür sürürlər. Heydər Əliyevin ömrü məhz bu cür məşəl kimi yanan həyatın bariz timsalı idi. Azərbaycan xalqı Heydər Əliyevi yetişdirdiyi kimi, Heydər Əliyev də müasir Azərbaycan dövlətçiliyini yetişdirmiş, qabaqcıl, demokratik Azərbaycan Respublikası səviyyəsinə gətirmişdi. Ulu Öndərimiz həmişə deyirdi ki, milli ruhu və milli varlığı müdafiə, eyni zamanda, mühafizə etməyin, milli maraqları gerçəkləşdirməyin ən uğurlu forması müstəqil milli dövlətdir. Odur ki, milli-mənəvi dəyərlərlə yanaşı, milli dövlətçiliyin də qorunmasını, inkişafını və dünyaya inteqrasiyasını siyasi fəaliyyətinin əsas hədəfləri hesab etmiş, özünün mənalı ömrünü bütünlüklə bu məqsədlərə həsr etmişdir.

Bu gün ümummilli lider Heydər Əliyev cismən aramızda olmasa da, əbədiyyətə qovuşsa da, ruhən bizimlədir - onun yüksək amalları, qurub-yaratdığı müstəqil Azərbaycan Respublikası yaşayır və inkişaf edir. Artıq bütün dünyaya bəllidir ki, Azərbaycan xalqı - Heydər Əliyev birliyi tarixin bütün sınaqlarından keçməyə qadirdir və əbədidir.

Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ulu Öndərin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycanın dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə ümummilli lider Heydər Əliyevin xidmətləridir.

İqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksək mövqedə olması, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən-ilə çoxalması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir.

Azərbaycanda qeyri-neft sektorunun uğurla inkişaf etdirilməsi də dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörənliyinin məntiqi nəticəsidir.

Postsovet məkanında analoqu olmayan cəsarətli qərarları ilə Heydər Əliyev torpağın şəxsi mülkiyyətə verilməsi ilə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmiş oldu. Bu gün müxtəlif kənd təsərrüfatı komplekslərinin uğurlu fəaliyyəti onun aqrar siyasətinin parlaq təzahürüdür.

Ulu Öndərin vaxtilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Silahlı Qüvvələrinin yaradılması mərhələlərindən keçərək onun Cənubi Qafqazda aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

*Müasir Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin əsəridir*

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Ulu Öndərin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Dahi Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.

Xalqımızın Ümummilli Liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi Vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz Vətəni saymaşı, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyev fəaliyyətinin nəticəsidir.

Ümummilli lider Heydər Əliyevin XX əsrdə totalitarizmin Azərbaycana qarşı törətdiyi faciələrin davamı kimi qanlı 20 Yanvarı xalqımız əleyhinə hərbi, siyasi və mənəvi təcavüz kimi qiymətləndirməsi onun ömrü boyu sadiq qaldığı siyasi məfkurənin və yüksək vətənpərvərliyinin yeni siyasi şəraitdə təcəssümü idi. Mövcud siyasi, iqtisadi və sosial böhran müstəqilliyimizin ilk illərində Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdığı bir dövrdə Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi gün - 1993-cü ilin 15 iyunu tariximizə Qurtuluş Günü kimi daxil olmuşdur. Bu qurtuluş qısa bir zamanda özünü nəinki siyasətdə, həm də iqtisadiyyatda, təhsildə, mədəniyyətdə və insanların gündəlik real həyatında büruzə vermişdir.

Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk günlərdən təcrübəli siyasətçi, mahir diplomat kimi ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi istiqamətində fəaliyyətə başladı. Həmin dövrdə Azərbaycanın Silahlı Qüvvələrinin böyük bir hissəsi ayrı-ayrı cinayətkar əllərdə cəmləşərək siyasi məqsədlərə, ölkə daxili çəkişmələrə, hakimiyyət uğrunda mübarizələrə cəlb edildiyi üçün, Vətən torpağı müdafiəsiz qalmışdı, ərazilərimiz işğal olunurdu. İlk növbədə bu qeyri-qanuni silahlı dəstələr buraxıldı, siyasi təxribatların, dövlət çevrilişi cəhdlərinin qarşısı məharətlə alındı. Uzun sürən daxili çəkişmələrdən sonra, ölkədə ictimai-siyasi sabitlik yarandı. Heydər Əliyev uzaqgörənliyinin və müdrikliyinin növbəti göstəricisi Dağlıq Qarabağ müharibəsində atəşkəs istiqamətində danışıqlara başlaması oldu. Həmin dövrdə Azərbaycan ordusunun əks-hücumlarından qorxuya düşən erməni tərəfi də danışıqlara getdi və 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs elan olundu. Cənubi Qafqaz regionunda müharibənin dayanması və sabitliyin yaranması xarici neft şirkətlərinin Azərbaycana inamını artırdı və həmin ilin sentyabrında ARDNŞ-lə dünyanın aparıcı neft şirkətləri arasında, respublikamızda iqtisadi tərəqqinin əsasını qoymuş "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanda iqtisadi tənəzzülü cilovlamaq, ordu quruculuğu ilə məşğul olmaq üçün vaxt və imkan yarandı. Bu gün hamıya aydındır ki, o zaman müdrik dövlət başçımız tərəfindən bu taleyüklü addımlar atılmasaydı, Azərbaycan dövlətini yaratmaq da mümkün olmayacaqdı.

Bundan ötrü dünya miqyasında qəbul olunan və tətbiq olunan bütün variantları öyrənmək, onlardan bəhrələnməyi bacarmaq lazım idi. Ümummilli Liderimiz dövlətimizə fayda verə biləcək bütün mütərəqqi ideyaları Azərbaycanın reallığını nəzərə alaraq, ardıcıllıqla həyata keçirirdi. Azərbaycanı düçar olduğu bəlalardan qurtarmaq və onu dünyanın sivil ölkələri sırasına çıxarmaq üçün o, öz nadir intellektindən və tükənməz enerjisindən məharətlə istifadə edirdi. Bu bir həqiqətdir ki, millətin gücü və nüfuzu onu təmsil edən rəhbərin şəxsiyyətindən, diplomatiyasının səviyyəsindən birbaşa asılıdır. Dünyanın aparıcı dövlətlərinin respublikamıza marağı bir tərəfdən onun zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi ilə əlaqədar idisə, digər tərəfdən Ümummilli Liderimizin yürütdüyü praqmatik və iqtisadi cəhətdən perspektivli siyasətlə, bu siyasətin yaratdığı ictimai-siyasi sabitliklə bağlı idi. Artıq siyasi və iqtisadi islahatların aparılması və respublikamızın dünya birliyinə inteqrasiya olunması üçün hüquqi baza yaradılmışdı. Azərbaycan ümummilli lider Heydər Əliyevin müdrik rəhbərliyi ilə mütərəqqi beynəlxalq təcrübəyə əsaslanıb gələcəyə doğru inamla addımlayırdı.

Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Dahi şəxsiyyət Heydər Əliyevin qurduğu dövlətin iqtisadi siyasəti əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla sosial yönümü ilə səciyyələnirdi. Bu gün Azərbaycan nüfuzlu vətəndaş cəmiyyətinin əsaslarının qurulduğu, müxtəlif siyasi partiyaların sərbəst fəaliyyət göstərdiyi, yüzlərlə senzurasız qəzet və jurnalın nəşr olunduğu, eləcə də çox sayda özəl telekanalların yayımlandığı və internet şəbəkəsi istifadəçilərinin sayının sürətlə artdığı bir ölkədir.

Ümummilli lider Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.

Heydər Əliyevin memarı olduğu Azərbaycan bu gün böyük tikinti meydançasını xatırladır. Yüzlərlə sənaye və infrastruktur obyektləri, məktəblər, xəstəxanalar, idman qurğuları, yaşayış evləri, inzibati binalar və digər tikililər ucaldılır, yollar salınır. "Azərbaycan 2020 - gələcəyə baxış" İnkişaf Konsepsiyası bizim gələcək planlarımızı əks etdirməklə yanaşı, bir daha sübuta yetirir ki, Ulu Öndərin ölkəmizin tərəqqisini bu gün də təmin edən irimiqyaslı proqramları xalqımızın sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına xidmət göstərir.

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətləri olmuş, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermişdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# "Biz qalib gələcəyik"

*2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatına başladı. Döyüşlərdə düşmən ağır məğlubiyyətə uğradıldı. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsi azad edildi və Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.*





Aprel zəfəri əsgərlərimizin döyüş ruhunun, ordu ilə xalqın birliyinin təcəssümü oldu.

Aprel döyüşləri Azərbaycan Ordusunun nəyə qadir olduğunu təsdiqlədi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun Aprel qələbəsinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşündə deyib: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir".

Bu günün gəncləri yaxın gələcəkdə işğaldan azad olacaq ərazilərimizdə - sərhədlərə köçürülən səngərlərimizdə xidmət edəcəklər. Bunun üçün dövlətimiz hər bir sahədə lazımi işlər görməkdədir.

Gələcəyimizin təminatı olan gənclərin sağlam, vətənpərvərlik ruhunda böyüməsi dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindəndir. Bu istiqamətdə görülən işlər çoxşaxəlidir. Ümumtəhsil məktəblərində həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə xidmət edir.

Yuri Kovalyov adına 229 nömrəli orta məktəbdə Azərbaycan Ordusunun şücaəti, şanlı zəfəri ilə tarix yazan Aprel döyüşlərinin üçüncü ildönümü ərəfəsində "Şahinlər"in hərbi keçidi oldu. Tədbirdə Müdafiə Nazirliyinin, Bakı şəhər Təhsil İdarəsinin, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin, Nizami rayon İcra Hakimiyyətinin və digər qurumların nümayəndələri, millət vəkilləri, məktəbin müəllim və şagird kollektivi iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Məktəb direktoru Fəridə Bağırova tədbiri açaraq qeyd etdi ki, ümummilli lider Heydər Əliyev müəllimlərə tövsiyə xarakterli tarixi çıxışlarında bildirirdi ki, müəllimlər bütün qüvvə və bacarıqlarını doğma Vətənə sədaqətli, hərtərəfli inkişaf etmiş, müstəqilliyimizi və dövlətçiliyimizi göz bəbəyi kimi qorumağa hazır olan nəslin formalaşmasına sərf etməlidirlər. "Biz müəllimlər də gənclərimizin Vətəninə, torpağına, millətinə layiq vətəndaşlar kimi formalaşması üçün əlimizdən gələni edirik".

"Şahinlər" hərbi idman oyunu komandasının üzvləri hərbi rəhbər Rövşən Qasımovun əmri ilə düzüldülər və nizami addımlarla tribunanın qarşısından keçdilər. Komanda üzvləri hərbi sursatlarla, elektron lövhədə müasir silahlarla işləmə qaydasını nümayiş etdirdilər.

Polkovnik-leytenant Elmar Zeynalabdinov vurğuladı ki, belə vətənpərvər, hərb sahəsinə maraqlı gənclərimizin formalaşması Vətənimizin parlaq gələcəyindən xəbər verir. "Bu, qürurvericidir. Bu gün güclü ordumuz var. Ordumuzun dünyanın inkişaf etmiş ordularıyla bir sırada olması ilə fəxr edirik. Azərbaycan Ordusu hər an Ali Baş Komandanın əmrinə hazırdır. Əminəm ki, yaxın zamanda xalqımızı Qələbə xəbəri ilə müjdələyəcəyik".

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin əməkdaşı, dövlət qulluqçusu Zümrüd Səmədova qeyd etdi ki, xalqımızın Dağlıq Qarabağ kimi qaysaq bağlamayan yarası var. "Torpaqlarımızın 20 faizi işğal altındadır. Bu baxımdan gənc nəslin vətənpərvərlik tərbiyəsinin düzgün təşkil olunması böyük aktuallıq kəsb edir. Bu gün ümumtəhsil məktəblərimizdə "Gənclərin çağırışaqədərki hazırlığı", "Qarabağ tarixi" fənni tədris olunur, vətənpərvərlik yönümlü tədbirlər keçirilir. Bu fənlərin tədrisi, tədbirlərin keçirilməsi şagirdlərdə vətənpərvərlik hisslərinin gücləndirilməsində mühüm rol oynayır".

Millət vəkili Sədaqət Vəliyeva, Nizami rayon İcra Hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev və Aprel döyüşlərində iştirak edən döyüşçülər çıxışlarında gənclərimizin Vətən sevgisindən, onun ayıqsayıq müdafiəsindən, vətənpərvərlik tərbiyəsində iştirakın hər bir Azərbaycan vətəndaşının ən böyük vəzifəsi olmasından danışdılar.

Tədbir şagirdlərin hazırladığı "Biz qalib gələcəyik" adlı kompozisiya ilə başa çatdı.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Aprel döyüşləri - böyük qələbəyə gedən yolun başlanğıcı

Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə Aprel döyüşlərinin ildönümü ilə əlaqədar "Aprel döyüşləri - Xalqımızın Qəhrəmanlıq Salnaməsidir" adlı tədbir keçirildi. Tədbirdə ümummili lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. İştirakçılar hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himnini oxudular.

Aprel döyüşləri mövzusunda çıxış etmək üçün söz C.Naxçıvanski adına Hərbi Liseyin zabiti Natiq Rəhimova verildi. O dedi:

- Hörmətli tədbir iştirakçıları. Dünyada hər bir xalq daim öz qəhrəmanları və qəhrəmanlıqları ilə öyünüblər. Tarix boyu döyüşkən ruha malik olan Azərbaycan xalqı da öz qəhrəmanlıq səhifələri ilə öyünməyə layiq olan belə xalqlardandır. Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından olan Aprel döyüşləri də xalqımızın tarixinə böyük hərflərlə yazılıb. Xalqımızın qəhrəmanlıq salnaməsi olan Aprel döyüşləri həmişə iftixarla xatırlanır, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad edilir. Həyata keçirilən sürətli əks-həmlə zamanı erməni birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bəzi istiqamətlərində yarıldı,




strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqəsi Ermənistan silahlı qüvvələrindən azad olundu. Aprel döyüşlərində C.Naxçıvanski adına Hərbi Liseyin məzunları da böyük hünər və rəşadət göstərdilər. İki məzunumuz Murad Mirzəyev və Şükür Həmidov Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldülər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu günlərdə Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" hərbi hissəsində olarkən, Aprel döyüşlərinin uğurlarından da ətraflı söz açıb. Prezident hərbçilərlə görüşü zamanı deyib: "Aprel döyüşləri bizim tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu əməliyyatlardan biridir. Yaxşı bilirsiniz ki, döyüşlərə qədər Ermənistan silahlı qüvvələri işğal etmiş ərazilərdən bizim yaşayış məntəqələrini, hərbi mövqelərimizi atəşə tuturdu. Ermənistanın təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusu çox uğurlu əməliyyat keçirmiş və vaxtilə işğal edilmiş Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib. Minlərlə hektar torpaq işğalçılardan azad edildi, on minlərlə hektar ərazi nəzarətimizə keçdi. Vaxtilə işğal edilmiş torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Döyüşlər zamanı hərbçilərimiz peşəkarlıq, qəhrəmanlıq göstərmişlər. Bir daha göstəriblər ki, Azərbaycan əsgəri, zabiti həm peşəkardır, həm Vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır. Aprel döyüşləri hərbi cəhətdən çox uğurlu əməliyyat idi... Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər. Ermənistanın yaratdığı mif tamamilə darmadağın edildi".

Azərbaycan Ordusunun uğuru ilə başa çatan Aprel döyüşlərinin çox böyük tarixi əhəmiyyəti var. Xalq bir daha gördü ki, ordu ərazi bütövlüyümüzün ən etibarlı təminatçısıdır. Aprel döyüşləri böyük qələbəyə gedən yolun başlanğıcıdır.

Tədbirdə Aprel döyüşlərini özündə əks etdirən videoçarx nümayiş etdirildi. C.Naxçıvanski adına Hərbi Liseyin məzunu, Aprel döyüşlərinin iştirakçısı Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyevin həyat və döyüş yollarına həsr olunmuş, müəllifi bədii-qiraət natiqlər dərnəyinin rəhbəri Naibə Şəmşiyeva olan "Zirvəyə yüksələn ömür" adlı pyes iştirakçılar tərəfindən maraqla qarşılandı.

Tədbir kursantların Aprel döyüşlərinin iştirakçısı olmuş qəhrəmanların adından andiçmə tərəni ilə başa çatdı. Andın mətnində deyilirdi: "Qəhrəmanların adından söz verirəm ki, üstündə doğulduğum, havasını udduğum, çörəyini yediyim Vətənimin hər qarışını canım kimi, göz bəbəyim kimi qoruyacağıma, Azərbaycanın adını daim yüksəldəcəyimə, babalarımın müstəqillik arzularını həyata keçirəcəyimə and içirəm... Şərəf andı içirəm, Naxçıvanskilər andı içirəm..."

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Mərkəzi Ordu İdman Klubunun uğurları

Prezident, Ali Baş Komandan İlham Əliyevin idmana və idmançılara göstərdiyi diqqət və qayğı nəticəsində müxtəlif idman növləri üzrə peşəkar idmançıların yetişdirilməsi üçün hər cür şəraitlə təmin olunan Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubu (MOİK) bu gün fəaliyyətini günün tələbləri səviyyəsində qurub. Klubun yetirmələri beynəlxalq idman arenalarında yeni-yeni uğurlar əldə edirlər. MOİK Azərbaycan Ordusunu beynəlxalq və respublika səviyyəli yarışlarda peşəkar səviyyədə təmsil edir, həmçinin gənclərin vətənpərvərlik hissinin və fiziki hazırlığının yüksəldilməsində fəal iş aparır.

Mərkəzi Ordu İdman Klubu 1961-ci ildə təsis edilib. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Mərkəzi Ordu İdman Klubu Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tərkibinə verilib. Yarandığı gündən bu günədək Mərkəzi Ordu İdman Klubu şərəfli yol keçib. İdmançılarımız olimpiya oyunlarında, həmçinin dünya və Avropa çempionatlarında iştirak edərək medallar qazanıblar. Qazanılan medalların sayına görə MOİK-in adı Gənclər və İdman Nazirliyi tərəfindən həmişə fərqlənən idman klubları sırasında çəkilib.

MOİK 1995-ci ildən Beynəlxalq Hərbi İdman Şurasının (CISM) fəal üzvüdür. 1948-ci ildən fəaliyyət göstərən bu qurum hazırda 137 ölkəni özündə birləşdirən qitələrarası və regional yarışları keçirən ən böyük idman təşkilatlarından biridir. CISM-ə üzv olduğu gündən bu günə kimi, MOİK-in yetirmələri 6 dəfə Ümumdünya Hərbi İdman Oyunlarında və hər il keçirilən idman növləri üzrə dünya çempionatlarında uğurla çıxış edərək 33 qızıl, 42 gümüş və 58 bürünc medal qazanıblar. MOİK idmançıları 2015-ci ildə Koreya Respublikasında keçirilən 6-cı Ümumdünya Hərbi İdman Oyunlarında da ölkəmizi yüksək səviyyədə təmsil ediblər. 120 ölkədən 8100 idmançının iştirak etdiyi bu yarışlarda Azərbaycan Respublikasının Silahlı Qüvvələri 5 idman növü üzrə 30 idmançı ilə təmsil olunub və ümumi medal hesabında 15-ci yerə layiq görülüb. Mərkəzi Ordu İdman Klubunun uğurları bununla kifayətlənmir. Hərbçilərin cüdo üzrə dünya çempionatı Qafqazda birinci dəfə, Rusiya Federasiyasından sonra Azərbaycan Respublikasında keçirilib. MOİK-in ən böyük uğurlarından biri 2013-cü ildə hərbçi idmançılar arasında ilk dəfə keçirilən futbol üzrə Dünya Kubokunun Azərbaycanda keçirilməsi olub.

Ordu klubunun növbəti uğuru məhz futbol arenasında olub. Azərbaycan çempionatının birinci divizionunda mübarizə aparan Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun "MOİK" futbol komandası birinci dövrədə olduğu kimi, ikinci dövrədə də inamlı çıxışını davam etdirir.

Liqanın lideri olan ordu topçuları son turda "Keşlə-2" komandasını doğma azar-




keşləri önündə 2:1 hesabıyla məğlubiyyətə uğradıb. "Hərbçilər" 22 turdan sonra xal hesabını 56-ya çatdırıb. Bununla da "MOİK" futbol klubu 2019-2020-ci il mövsümü üçün Azərbaycan Premyer Liqasına vəsiqəni rəsmi olaraq təmin edib. Çempionatın əsasnaməsinə görə, birinci divizionda ikinci komandalar istisna olmaqla ən yüksək pilləni tutan komanda Premyer Liqaya vəsiqə qazanır.

MOİK-in ən yaxın izləyiciləri "Sumqayıt-2" və "Neftçi-2" komandaları isə yuxarı liqada oynayan komandaların əvəzediciləri olduğuna görə əsasnaməyə əsasən yüksək dəstəyə vəsiqə ala bilməzlər.

Bu turadək yeganə vəsiqə uğrunda mübarizədə MOİK-in əsas rəqibi "Zaqatala" komandası idi. Dördüncü sırada qərarlaşan komanda "Ağsu" komandasını 4:2 hesabı ilə məğlub edib. Lakin bu turu da qələbə ilə başa vuran "MOİK" komandası rəqibi ilə arasındakı xal fərqini 14-ə çatdırıb. Nəticədə mövsümün sonuna dörd tur qalmış ordu topçuları dəfələrlə yüksəldiyi elitaya yenidən vəsiqə qazanıblar.

Ardıcıl 9-cu oyunda qələbəni bayram edən "Hərbçilər" növbəti oyununu aprelin 17-də "Neftçi-2"-yə qarşı keçirəcəklər. Bu görüşün də nəticəsindən asılı olmayaraq "MOİK" artıq Premyer Liqaya vəsiqə qazanan qalib komandadır.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

---

Rumıniyanın paytaxtı Buxarest şəhərində keçirilən güləş üzrə Avropa çempionatı sona çatıb. Sərbəst güləşdə 10, yunan-Roma güləşində 10, qadın güləşində isə 8 idmançı ilə yarışa qatılan Azərbaycan millisi toplamda 13 medal əldə edib. Belə ki, təmsilçilərimiz sərbəst güləşdə 3 qızıl, 1 gümüş və 2 bürünc, qadın güləşində 1 qızıl və 3 bürünc, yunan-Roma güləşində isə 1 gümüş və 2 bürünc medal əldə ediblər. Bu nəticələrdən sonra sərbəst və yunan-Roma güləşi üzrə yığmamız Avropa çempionatının 3-sü, qadınlardan ibarət yığmamız isə Avropa çempionatının 4-sü olub.

Sevindirici haldır ki, yığmamızın üzvləri arasında 4 MOİK təmsilçisi də var. Mərkəzi Ordu İdman Klubunun üzvlərindən qadın güləşçi Tatyana Varantsova (53 kq) və yunan-Roma güləşində Rafiq Hüseynov (82 kq) mübarizəni ilk görüşdə dayandırmalı olub.

Yunan-Roma güləşində 97 kq çəki dərəcəsində güləşən Orxan Nuriyev isə son ana qədər medal qazanmağa çalışıb. Mübarizəyə səkkizdəbir finaldan başlayan Orxan Nuriyevin ilk görüşü prinsipial xarakter daşıyıb. Avropa çempionatının üçqat bürünc medalçısı Artur Şahinyanla qarşılaşan gənc güləşçimiz parlaq qələbə qazanaraq adını dörddəbir finala yazdırıb. Ancaq bu mərhələdə sonuncu xal prinsipinə əsasən bolqar güləşçi sevinən tərəf olub. Bolqar idmançının finala yüksəlməsi ilə təsəlliverici görüşə çıxmaq şansı əldə edən güləşçimiz bürünc medal yolunda əvvəlcə macar rəqibinə qalib gəlib. Təəssüf ki, bürünc medal uğrunda görüşdə finlandiyalı güləşçiylə gərgin mübarizədə uduzub - 2:3. Beləliklə, Orxan Avropa çempionatının 5-si olub.

Bununla belə, MOİK idmançılarından medal qazanan da olub. Sərbəst güləşçilərin yarışında 70 kq çəki dərəcəsində mübarizə aparan Ağahüseyn Mustafayev turnirə ardıcıl iki dünya çempionunu - Rusiya və Ermənistan pəhləvanını məğlub edərək başlayıb. Yığma üzvü yarımfinalda Böyük Brita-



niya təmsilçisini də rahat üstələyib. Karyerasında ilk dəfə Avropa çempionatının finalına vəsiqə qazanan Ağahüseyn həlledici görüşdə türkiyəli rəqibinə uduzaraq gümüş medalla kifayətlənib.

* * *

Portuqaliyanın Çaves şəhərində çimərlik güləşi üzrə Dünya Seriyası turniri keçirilib.

Ölkəmizi məşqçi Nazim Əlicanovun rəhbərliyi altında 4 güləşçi təmsil edib. Onlardan biri, MOİK idmançısı, əsgər Pənah İlyaslı 70 kq çəki dərəcəsində ard-arda 4 görüşdə portuqaliyalı Nuno Enrike Lopes Fraqa, braziliyalı Joao Viktor Dos Santos Silva, rumıniyalı Stefan Yonut Koman və yunan Niko Aruzmanidisə qalib gələrək finala yüksəlib. Son görüşdə gürcü Levan Kelexsaşviliyə məğlub olan təmsilçimiz gümüş medalla kifayətlənib.

Pənahdan başqa, yığmamıza Oyan Nəzəriani (+90 kq) və İbrahim Yusubov (80 kq) medal qazandırıb. Oyan qızıl, İbrahim gümüş medala sahib çıxıb.

Beləliklə, yığmamız Portuqaliyada 1 qızıl və 2 gümüş medala sahib olub. Bu nəticə ilə yığmamız 65 xal toplayaraq, komanda hesabında 1-ci yeri tutub. Gürcüstan (62) ikinci, Yunanıstan (50) isə üçüncü olub. Növbəti analoji yarış mayın 10-11-də Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək. Xatırladaq ki, bu yarışlar oktyabrda ABŞ-da keçiriləcək Dünya Çimərlik Oyunlarına lisenziya xalları verir.

**Elvin YAQUBOV**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə terror planlaşdıran iki PKK-çı zərərsizləşdirilib



Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcıları İraqın şimalında yerləşən Zap, Avaşin-Basyan, Hakurk və Qəndil bölgələrindəki PKK düşərgələrini bombalayıb.

Türkiyə Müdafiə Nazirliyinin saytı xəbər verir ki, aviazərbələr nəticəsində terror təşkilatına məxsus silah anbarı və sığınacaqlar məhv edilib.

Digər bir rəsmi məlumata görə, Diyarbəkirin Kocaköy rayonu ərazisində keçirilmiş antiterror əməliyyatı zamanı zərərsizləşdirilən Zinarin Berxvedan ləqəbli Hacire Yılmaz və Zilan Tolhildan ləqəbli Suzan Çelikin əşyalarından əhəmiyyətli kəşfiyyat məlumatları əldə olunub. Bu məlumatlar əsasında PKK və KCK terror təşkilatlarının Konya stadionunda terror hazırladığı aşkar edilib. İstintaq nəticəsində 4 nəfər şübhəli qismində həbs edilib.

## Rusiya S-400 zenit-raket kompleksi ilə bağlı Türkiyənin mövqeyini alqışlayır



Rusiya S-400 zenit-raket kompleksləri ilə bağlı Türkiyənin mövqeyini alqışlayır.

Bu sözləri Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov "Rossiya-1" telekanalında çıxışı zamanı deyib. O, Ankaranın Rusiya raketlərinin alınması ilə əlaqədar bəyanatını şərh edərək söyləyib ki, ölkəsi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qəti mövqeyini alqışlayır. D.Peskov əlavə edib ki, dünyada suveren siyasət yeridən az ölkə tapmaq olar. Rusiya və Türkiyə belə ölkələrdəndir.

## BƏƏ Sudanın yeni təyin olunmuş hərbi şurasının atdığı addımları dəstəkləyir



Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Sudanda hərbi keçid şurasının yeni təyin olunmuş başçısı Əbdülfəttah əl-Burxanı dəstəklədiyini bəyan edib.

BƏƏ-nin prezidenti şeyx Xəlifə bin Zayed Əl Nahyan Sudana humanitar yardımın tezliklə göndərilməsinin yollarının araşdırılması üçün ölkənin keçid hərbi şurası ilə əlaqənin yaradılması barədə tapşırıqlar verib.

BƏƏ-nin Xarici İşlər Nazirliyinin bəyanatında deyilir ki, Əmirlik Sudanın ən yeni tarixinin bu dönüş məqamında baş verən hadisələri diqqətlə izləyir və qardaş xalqın, onun milli ordusunun bütün çağırışların öhdəsindən gələ biləcəyinə, ölkədə sabitliyin, inkişafın və çiçəklənmənin təmin etmək iqtidarında olduğuna ümidvar olduğunu bildirib.

Bəyanatda Sudanın hərbi şurasının ölkədə qanın tökülməməsi istiqamətində atdığı addımlarının dəstəkləndiyi vurğulanır.

## Pakistanda törədilən partlayışın məsuliyyətini İŞİD qruplaşması üzərinə götürüb



Pakistanın Kvetta şəhərində törədilən partlayışın məsuliyyətini İŞİD qruplaşması üzərinə götürüb.

Xatırladaq ki, aprelin 12-də Pakistanın Bəlucistan vilayətinin Kvetta şəhərində yerləşən bazarda kustar üsulla hazırlanmış partlayıcı qurğu işə salınıb. İnsident nəticəsində azı 20 nəfər həlak olub, 48 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. Həlak olanlar arasında hərbçilər də var.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 291
Nüsxə 3950